Şərq.- 2019.- 9 noyabr.- S.6.

# Ağdamda bayraq yürüşü





**Ağdam Qarabağ müharibəsində və dövlətçiliyimizin qorunmasında 6 min nəfərə yaxın şəhid verib. Bu torpaq şəhid qanı ilə suvarılıb, yüzlərlə insan əlil olub, dinc insanlar ev-eşiyindən didərgin düşüb. Üçrəngli bayrağımız ağdamlılar üçün daha müqəddəs və daha önəmlidir.**

Noyabrın 7-də Təhsil Nazirliyi, Müdafiə Nazirliyi və Ağdam Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Dövlət Bayrağı Günü münasibətilə Bayraq yürüşü keçirilib. Yürüşün keçirilməsində məqsəd milli atributlarımızın təbliği, gənclər arasında vətənpərvərlik hissi və milli-mənəvi dəyərlərin aşılanmasıdır.

Yürüşdə Təhsil nazirinin müavini Firudin Qurbanov, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Milli Məclisin deputatı Aydın Mirzəzadə, Müdafiə Nazirliyinin əməkdaşları, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri, media qurumlarının rəhbərləri, hərbçilər, tanınmış ziyalılar, müəllim və şagirdlər, KİV nümayəndələri iştirak ediblər.

Dörd min nəfərdən çox insanın iştirak etdiyi yürüş Quzanlı qəsəbəsinin Heydər Əliyev prospekti ilə Dövlət Bayrağı Meydanına qədər davam edib. İştirakçılar Şəhidlər abidə kompleksi önünə tər gül dəstələri düzüblər. Hərbi orkestrin ifasında Azərbaycanın Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, üçrəngli bayrağımız Azərbaycanın varlığını və gücünü dünyaya, həmçinin dostlarımıza və düşmənlərimizə göstərir. Nazir müavini Təhsil Nazirliyinin təşəbbüsü ilə ənənəvi olaraq keçirilən Bayraq yürüşünün gənclərin milli dəyərlərə ehtiram və bağlılıq ruhunda tərbiyə olunması baxımından xüsusi rolunu vurğulayıb.

Nazir müavini Prezident İlham Əliyevin Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışına da toxunub. Varlığımızı və gücümüzü dünyaya tanıdan bayrağımızın işğal altında olan ərazilərimizdə dalğalanacağı günün uzaqda olmadığına və Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında buna nail olunacağına inamını ifadə edib.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov Dövlət Bayrağı Gününün qeyd olunmasını dövlətçilik tariximizin əlamətdar hadisəsi kimi qiymətləndirib. Cəbhə bölgəsində belə tədbirin keçirilməsinin gənclərdə vətənpərvərlik hissini daha da artıracağını vurğulayıb.

Milli Məclisin deputatı Aydın Mirzəzadə çıxışında bildirib ki, hər bir azərbaycanlının ən böyük arzusu torpaqlarımızın işğaldan azad olunması və üçrəngli bayrağımızın doğma Qarabağımızda dalğalanmasıdır.

"N" saylı hərbi hissənin komandir müavini, polkovnik-leytenant Babək Səmidli Azərbaycan Silahlı Qüvvələrinin üçrəngli bayrağımızı işğal altında olan ərazilərimizdə dalğalandırmağa hər an hazır olduğunu bildirib.

**Salman ALIOĞLU,**
**"Respublika".**